## SİYASİ DİSKURS SİYASİ FİLOLOGİYANIN PREDMETİ KİMİ

**F.A.ŞİRİYEV**
*Bakı Dövlət Universiteti*

Diskurs natiqin cümlə və onun fraqmentləri vasitəsilə ictimai-sosial və elmi mövqe baxımından müəyyənləşməsidir və onun məzmunu «diskurs topiki» adlanan konsent [8] ətrafında mərkəzləşir.

Cümlələrin məntiqi mənası bir-birilə müəyyən münasibətlərlə bağlanan propozisiyaları [7] yaradır və bunlar da diskursun komponentləri adlanırlar. Diskurslarda veriləcək fikri nəzərə alaraq natiq, ümumi mənada elementar propozisiyanı komponentləşdirir, yəni cümlələrdə şərh olunacaq, veriləcək mənanı, informasiyanı semantik və struktur baxımından müəyyənləşdirir.

Diskursun mövzusunun informativ baxımdan yüklənilməsi referent eynimənalılığı kənarlaşdırır; hər bir cümlənin kommunikativ məqsədi müəyyənləşir və nəticədə də diskursun qrammaturgiyası meydana gəlir.

Qarşıya qoyulan mövzunun şərhi zamanı bərpa olunan fikirlər aləmi natiqin ixtiyarındadır və o, həmin fikirlər aləmində faktları ani olaraq nəzərdən keçirir, saf-çürük edir, real və ya onu qane edən problemləri diskursda verir. Gündəlik həyatımızda fəaliyyətdə olan insanları, obyekti, hadisənin törəmə zamanını, onun tərzini və s. görürük, müşahidə edirik. Həmin faktorların indiki müşahidə anından əvvəlki inikası sistemli şəkildə bizim fikirlər aləmimizdə möhkəm yer tutur. Diskurs müəllifi də lazım gələndə informasiya bolluğunu özündə əks etdirən həmin fikirlər aləminə müraciət edir. Qeyd olunan fikirlər aləminin zənginliyi və orada xarici aləm haqqında yerləşdirilən biliyin dərinliyi və sistemliliyi hər bir insanın fərdi keyfiyyətləri ilə yanaşı, müəyyən ictimai-sosial məsələlərlə bağlanır.

Təcrübəli natiqlərdə – siyasətçilərdə köhnə biliklə yeni biliyin harmoniyası və başqasının şüuruna təsir etmək əsas məqsəd kimi qarşıda durur. Şərhçinin yaxşı təşkil olunmuş nitqi adresata inandırıcı təsir edir və onun şüurundan biliklər yeni baxışlar istiqamətində modifikasiya olunur.

Siyasi diskurs siyasətçilərin konkret obyektə ünvanlanmış nitqidir. Həmin nitqin siyasi filologiya baxımından öyrənilməsi diskurs şərhində xüsüsi əhəmiyyətə malikdir [3, 32-43].

Siyasi nitq//siyasi dil anlayışının meydana çıxması, yəni siyasi nitqi özünəməxsus xüsusiyyətlərinə görə başqa nitq növlərindən fərqləndirmək Avropa dilçilərinin xidmətidir [4, 10]. «Siyasi nitq» anlayışının ilk dəfə elmi ədəbiyyatlarda işlənilməsini J.Quilhomu 1792-ci ilə aid edir. T.Todorov [6, 7-14] göstərir ki, bir az sonralar bu termin təqribən ənənəvi mənadan fərqli məzmunda işlənilməyə başlanmış və həmin termin mənəvi və siyasi elmlərdə (sciences morafes et politiqnes) aktiv şəkildə işlənmışdır. Qərbi Avropa və Rus dilçiliyində siyasi diskursun filo-

loji istiqamətdə tədqiqi nitqin optimallaşdırılması məsələlərinə və komminikasiya nəzəriyyəsinə ciddi nailiyyətlər gətirdi. Xüsusən siyasi nitqi başqa nitq növlərindən fərqləndirən N.Badaloni [1, 3-18] siyasi nitqin filoloji istiqamətinə böyük nailiyyətlər gətirdi. Həmin nailiyyətlərdən istifadə edən Avropa və rus dilçilik məktəbləri siyasi diskursun filoloji istiqaməti üzrə fundamental tədqiqatlar aparmağa başladılar. Onlar öz tədqiqatlarında siyasi cəhətcə yüklənmiş mətnlərdən dilin düşüncəsinin əsas həlqəsi olmasından, siyasi təzyiq üçün dildən hər vaxt istifadə edilməsindən, siyasi nitqin bir çox xüsusiyyətlərinə görə adi nitqdən fərqlənməsindən və s. problemlərdən bəhs etməyə başladılar.

N.Badaloni siyasi diskursun filoloji istiqamətlərindən danışarkən aşağıdakı məsələlərə xüsusi fikir vermişdir:

1. Siyasi leksika. Bildiyimiz kimi, siyasi leksika adi danışıq nitqindəki leksikadan fərqli olaraq xüsusi terminlərlə səciyyəvidir. O terminlər siyasətçilərə də məlumdur.

2. Siyasi priyom. Siyasi diskursun təşkilində müxtəlif xüsusiyyətli priyomlardan istifadə olunur.

3. Siyasi diskursun reallaşma spesifikliyi.

N.Badaloni fikrinə davam edərək göstərir ki, siyasi diskursa üç nöqteyi-nəzərdən yanaşmaq olar:

1. Sırf filoloji.
2. Sospsixolinqvistik.
3. Fərdi germenevtik [5].

Bu vaxt natiqin şəxsi fikirlərinin təzahürünə tam imkan yaranır. Ona görə də, diskursun təhlili zamanı müxtəlif fənlərin diskurs fokusunda kəsişmə nöqtəsinə xüsusi fikir verilir və nitqin məzmunu, vəzifələri və formasının təhlili ilə bağlı müxtəlif məsələlərin şərhində bu məqama çox diqqət yetirilir. Məhz siyasi filologiya da siyasi diskursdakı «hakimiyyət», «avtoritet», «təsir» kimi konseptləri araşdırır. Politoloqlardan fərqli olaraq filoloqlar qeyd olunan faktorları danışanın nitq xüsusiyyətləri baxımından öyrənir.

Siyasi ədəbiyyatşünaslıqda siyasi diskursun makrostrukturunun süjet motivlərini və janrlarını, yəni diskursun inikasını öyrənir.

Siyasi linqvistikada isə aşağıdakı məsələlərə xüsusi fikir verilir:

1. Sintaktika, semantika və proqmatika.
2. Bunlar diskursun məqsədinin və modelinin şərhinin əsas xüsusiyyətləri kimi [2].

Siyasət diskursu müəyyənləşdirən siyasi terminlərin mənəvi dəyərliliyidir. Linqvistik tədqiqatlarda ekstralinqvistik faktorların mühüm rola malik olmasını nəzərə alaraq məsələyə belə yanaşma təbii səciyyə daşıyır. Məsələn: «Totalitar» diskursun aşağıdakı ekstralinqvistik xüsusiyyətləri vardır:

1. Yüksək səviyyəli natiqlik. Deklomotor üslubun hakim olması.
2. Təbliğ triumfalizmi.
3. Danışılan, bəhs olunan məsələnin ideolojiləşməsi.
4. Tənqidin və alovluluğun gücləndirilməsi.
5. Mücərrədliyin və elm bənzərliyin yüksəldilməsi.
6. Şikarlılıq, ehtiras və məftunetmə.
7. Təbliğat.
8. Yüksəkdə dayanan «Mən».
9. Partiyalılıq.

10. Mütləq «həqiqətə» cəhd.

Bu xüsusiyyətlər polemikliliyi yaradır və siyasi nitqi başqa nitqlərdən fərqləndirir. Polemika döyüş səhnəsini xatırladır və sözlər seçimində də bu cəhət özünü göstərir. Belə aqressivlik insanda təbiətən mövcuddur.

Deməli, siyasi nitqin polemikliyi xüsusi səhnələşdirilmiş aqressiyadır. Polemiklik danışanı siyasi əleyhdarlarına müsbət təsir etməyə istiqamətləndirir və başqa dəyərlərlə bağlanmağa yönəldir. Buna görə də, bir baxış üçün pozitiv qəbul edilən terminlər, digərləri tərəfindən neqativ anlanılır və ya bəzən təhqir kimi qəbul edilir. Bu, totalitar cəmiyyətin siyasi diqlosiyası ilə izah olunur və onun iki dili vardır:

1. Rəsmi təbliğat dili.
2. Adi dil.

Siyasi diskursda dəyərliliyi müəyyənləşdirmək üçün açıq və gizlin məqamlarla bağlı olan aşağıdakı məsələlərə fikir verilir:

1) konstitusiya və davranış;
2) suallar şəklində verilən gizlin ifadələr;
3) seçilmiş suallara cavablar;
4) problemin təsviri və şərhi;
5) cəmiyyətin qarşısında duran problemin həllinin təsviri;
6) neqativ (məs. belə yaşamaq olmaz);
7) ideyanın tərtibi;
8) nəticə kimi ümumi həqiqəti verən deyimlər;
9) dövlət nümayəndəsinə sorğu və tələblər;
10) müəyyən qərar və çağırışların həyata keçirilməsinə çağırış.

**Siyasi diskursun effektivliyi.** Siyasi diskursun ictimai təyinatı ondadır ki, adresata təsir etsin. Başqa sözlə, siyasi diskursun məqsədi situasiyanı təsvir etmək deyil, dinləyicini inandırmaq, inam üçün əsas vermək, onu fəaliyyətə sövq etməkdir. Siyasi diskursun effektivliyini məhz buna görə bilavasitə bu məqsəd təyin edir. Siyasətçinin nitqi simvollara əsaslanır, onun uğuru isə kütlə şüurunda həmin simvolların harmonik səslənməsindən asılıdır. Siyasətçi ona lazım olan sahəni dinləyicilərin şüurunda oyatmalıdır; siyasətçinin deyimləri fikirlər aləmində yer tapmalıdır. Belə təsirlər həmişə arqumentasiya kimi görünür, dinləyicini həmişə öz tərəfinə cəlb etməyə sövq edir; daha doğrusu, bəzən adresat məntiqi əsaslanmaya can atmır və asanlıqla hiss etmək olur ki, natiqlə dinləyicilərin maraqları üst-üstə düşür.

Bu maraqları qoruyaraq emosiyaya təsir etmək, başqasının mənəvi dünyasında uzun müddət hissləri oyatmaq olar. Daha optimal yol – nəyinsə haqqında əsaslar irəli sürmək, hansısa şüura birxətli təsir etməkdən ibarətdir; sadəcə olaraq onu səsli şəkildə fikirləşir, yaxud da hansısa vəziyyətin xeyrinə olaraq dəlillər irəli sürür, çalışır ki, opponentini tamamilə əks tezislə inandırsın.

İstənilən siyasi diskurs təkcə siyasi məzmuna malik deyil, həm də o, öz xarakterinə, daxilə nüfuz etmə xüsusiyyətinə, auditoriyaya təsir motivinə, məqsədlərə təsir baxımından imperetatorun potensial görüşləri sistemini özündə əks etdirir. A.Sopenqaner göstərirdi ki, inandırmanın mahiyyəti insanlarla anlayışların təmasından ibarətdir. Məhz bunun sayəsində bir inamdan digərinə keçid baş verir; bəzən də danışanın gözlədiyinin əksinə olur.

Təlqin etməyin minimum müvəffəqiyyəti proponentə, nitqdə verilən məlumata münasibətindən asılıdır.

İnanma birinci etimad dərəcəsindən, proponentə simpatiyadan, lazımi mövqeyi qazanmaq natiqin məharətindən asılıdır. Adresatın meylini özünə çəкməк üçün natiq nitqini düzgün qurmalı və nitqin əsas yerində müdafiə olunan müddəaları yerləşdirməyi bacarmalıdır. Natiq yalnız adresata başqasının fiкrini кönüllü qəbul etməк hissi yarada bildiкdən sonra ona hansısa hissi aşılaya bilər. İnsanlar həmişə nitqdən nəyisə gözləyir. Ola bilər кi, nitq davranışı normativ qaydalardan кənara çıxsın, onda nitqin təsir gücü aşağı düşə bilər, yaxud gözlənildiyindən daha çox effeкtli olar.

## ƏDƏBİYYAT


1. Бадалони Н. Политика, Persuasione, decision//Linguaggio, persuasione, verita, Padova: Cedam (Milani). 1984, 234 s.
2. Чудинов А.П. Политическая лингвистика. М.: Наука, 2006, 456 с.
3. Демьянков В.З.Политический дискурс как предмет политической филологии // Политическая наука. Политический дискурс. История и современные исследования. М.: 2002. № 2.
4. Guilhaumon J/ La langue politique et la revolution franais/ De l'evenement a la raison linquistique. P. Meridiens klincksieck, 1989, с. 8-21
5. Кузнецов В. Герменевтика и ее путь от конкретной методики до философского направления (htt://:v, rin, ru/doк/i/ 16288p 3.htm).
6. Todorov T. Les moral de lhistoque P.Grasset. 1991, с. 7-14.
7. Виноградова Е.М. Пронозициональный анализ художественного текста как основа его интерпретации // Изв. Уральс. Госуниверситета гуманитарных наук. Высш. филология. № 41, 2006, с. 145-152.
8. Зусьман В. Концент в системе гуманитарного знания. Вопросы литературы // Теория, проблемы и размышления. М.: 2003. №2, с. 7-12.


## ПОЛИТИЧЕСКИЙ ДИСКУРС КАК ПРЕДМЕТ ФИЛОЛОГИИ


**Ф.А.ШИРИЕВ**


**РЕЗЮМЕ**


Одним из значительных достижений современного западного языкознания является исследование политического дискурса в политико-филологическом направлении. К сожалению, в азербайджанском языкознании этой области уделяется очень мало внимания. В данной статье, обращаясь к работам Н.Бадалони, Т.Тодорова, Г.Гилхаумона, а также русского лингвиста А.Р.Чудинова и др., предпринимается попытка прояснить основные проблемы, связанные с исследованием политического дискурса.


## POLITICAL DISCOURSE AS A SUBJECT OF PHILOLOGY


**F.A.SHIRIYEV**


**SUMMARY**


One of the most significant achievements of Western linguistics is the research of political discourse within philological – political direction. Unfortunately, very little attention is paid to this area in Azerbaijan linguistics. Within this article we make an attempt to clarify some issues connected with the political discourse basing on the works by N.Badaloni, T.Todorov, G.Guilhauman, as well as the Russian linguist A.R.Chudilov and others.